

# Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına dəyişikliklər və əlavə edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Daşınmaz əmlakın dövlət reyestri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 2 avqust tarixli 439 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə **qərara alıram**:

1. «Torpaq icarəsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 12 mart tarixli 116 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 3, maddə 168; 2001-ci il, № 10, maddə 640, № 12, maddə 755; 2002-ci il, № 12, maddə 723; 2003-cü il, № 10, maddə 577; 2005-ci il, № 11, maddə 1016; 2006-cı il, № 7, maddə 590) 2-ci bəndinin beşinci abzası çıxarılsın.

2. «Bələdiyyələrin əraziləri və torpaqları haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 24 dekabr tarixli 237 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 12, maddə 717; 2001-ci il, № 12, maddə 755) 6-cı bəndində *«Dövlət Torpaq Komitəsinə» sözləri «Azərbaycan Respublikasının Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinə»* sözləri ilə əvəz edilsin.

3. «Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin icrasının təmin edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 291 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 3, (I kitab), maddə 158; 2001-ci il, № 10, maddə 640; 2003-cü il, № 10, maddə 546; 2004-cü il, 2, maddə 69; 2006-cı il, № 8, maddə 660) 1-ci bəndinin on üçüncü abzasından *«, 79-cu maddəsinin 1-ci bəndinin ikinci abzasında»* sözləri, on yeddinci abzasından *«66-cı maddəsinin 2-ci (özəlləşdirilən dövlət müəssisə və obyektlərinin yerləşdiyi torpaq sahələri istisna olmaqla, qalan torpaq sahələri üzərində mülkiyyət və torpaqdan daimi istifadə hüquqlarını təsdiq edən dövlət aktlarının (şəhadətnamələrin) verilməsi hissəsində) və 3-cü (özəlləşdirilən dövlət müəssisə və obyektlərinin yerləşdiyi torpaq sahələri istisna olmaqla, qalan torpaqlara münasibətdə) bəndlərində,»* sözləri, on altıncı və on səkkizinci abzasları çıxarılsın.

4. «Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 8, (III kitab), maddə 609; 2001-ci il, № 10, maddə 640; 2003-cü

il, № 8, maddə 435, № 10, maddə 552; 2004-cü il, № 6, maddə 435; 2005-ci il, № 2, maddə 64, № 5, maddə 403; 2006-cı il, № 7, maddə 590) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3-cü bəndinin altıncı abzasından *«148.1,»* rəqəmi çıxarılsın;

4.2. 3-cü bəndinin doqquzuncu abzasında *«yüklülüyünə dair təqdim olunan məlumatlar»* sözləri *«yüklülüyü ilə bağlı təsdiq edilmiş müqavilələr»* sözləri ilə əvəz edilsin;

4.3. 3-cü bəndinin onuncu və on birinci abzasları çıxarılsın və on ikinci - on altıncı abzaslar müvafiq olaraq onuncu - on dördüncü abzaslar hesab edilsin.

5. «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 avqust tarixli 389 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 8, (III kitab), maddə 612; 2001-ci il, № 7, maddə 462, № 10, maddə 640, № 12, maddə 755; 2002-ci il, № 1, maddə 49, № 5, maddələr 260, 275, № 8, maddələr 478, 484, 486; 2003-cü il, № 6, maddə 299, № 8, maddə 434, № 9, maddə 478, № 10, maddələr 546, 547, 560, 571, 582; 2004-cü il, № 1, maddələr 19, 26, № 3, maddələr 138,141, № 4, maddə 235, № 5, maddələr 340, 341, 343, 345, 346, № 8, maddələr 607, 608, № 11, maddə 909, № 12, maddə 1005; 2005-ci il, № 2, maddələr 67, 69, № 4, maddələr 299, 303, № 8, maddə 702, № 9, maddələr 801, 802, № 12, maddə 1101; 2006-cı il, № 2, maddə 83, № 4, maddələr 321, 322, № 5, maddə 407; 2006-cı il, № 7, maddə 590, № 8, maddələr 662, 663, 675, 679) aşağıdakı məzmunda 2.30-cu bənd əlavə edilsin:

*«2.30. həmin Məcəllənin 324-3.2-ci maddəsində «müvafiq icra hakimiyyəti orqanları» dedikdə, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi, Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Azərbaycan Respublikasının Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti, rayon və şəhər icra hakimiyyəti orqanları nəzərdə tutulur.».*

6. «Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında» Əsasnamənin təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 6 may tarixli 696 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 5, maddə 263; 2006-cı il, № 8, maddə 440) 2-ci bəndinin üçüncü abzasından *«və 26-cı bəndinin ikinci cümləsində»* sözləri və dördüncü abzası çıxarılsın.

7. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 24 aprel tarixli 57 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 4, maddə 237) ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Hirkan Milli Parkı haqqında Əsasnamə»nin 1.10-cu bəndində *«hüququna dair dövlət aktının»* sözləri *«hüququnun»* sözü ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 avqust tarixli 106 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 8, maddə

614; 2005-ci il, № 8, maddə 715) ilə təsdiq edilmiş «Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Ordubad Milli Parkı haqqında Əsasnamə»nin 1.11-ci bəndində *«hüququna dair dövlət aktının»* sözləri *«hüququnun»* sözü ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 avqust tarixli 106 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 8, maddə 614; 2005-ci il, № 8, maddə 715) ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Şirvan Milli Parkı haqqında Əsasnamə»nin 1.11-ci bəndində *«hüququna dair dövlət aktının»* sözləri *«hüququnun»* sözü ilə əvəz edilsin.

10. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 avqust tarixli 106 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, №8, maddə 614; 2005-ci il, № 8, maddə 715; Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 iyul tarixli 426 nömrəli Fərmanı) ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Ağgöl Milli Parkı haqqında Əsasnamə»nin 1.11-ci bəndində *«hüququna dair dövlət aktının»* sözləri *«hüququnun»* sözü ilə əvəz edilsin.

11. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 23 noyabr tarixli 147 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 11, maddə 911) ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Altıağac Milli Parkı haqqında Əsasnamə»nin 1.11-ci bəndində *«hüququna dair dövlət aktının»* sözləri *«hüququnun»* sözü ilə əvəz edilsin.

12. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 27 aprel tarixli 227 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 4, maddə 302) ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Abşeron Milli Parkı haqqında Əsasnamə»nin 1.11-ci bəndində *«hüququna dair dövlət aktının»* sözləri *«hüququnun»* sözü ilə əvəz edilsin.

13. Bu fərman dərc edildiyi gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV,***

***Bakı şəhəri, 23 noyabr 2007-ci il***

***№ 662***